qəzası baş verib. "Opel" markalı minik maşınının sürücüsü idarəetməni itirərək "Kamaz"a çırpılıb...."

... Özünü birtəhər toparlayıb yorğunluğu üstündən atdı, vedrəni alatoranlığa tolazlayıb bağıra-bağıra götürüldü, götürülə bildiyi qədər:

- Ay dədə heyy, vay dədə heyy...

Və Həsən inanırdı ki, Kürdəmir yolunda "Kamaz"a çırpılan həmin "Opel" onun almaq istədiyi maşın idi... "

İbrahim müəllimin çaş-baş qalmaqlığı:

"- Dedi, İbrahim müəllimə borcum var, görsəydim, qaytarardım...

- Deyir, sonra xərclənib gedir, saxlaya bilmirəm...

- Hə-sə-nağa...

- Vallah, məllim...

İbrahim müəllim day heç nə demədi. Söndürdü telefonu. Yəni Xədicə müəllimə doğrudan o pulu qaytarmamışdı? Qaytarmışdı axı... Qaytarmamışdı? ..."

Hər iksi də yanılır. Çünki dünyanın fırıldaq əməlləri onlara yaddı. Çünki ağır güzəran onların başına hava gətirib.

Kənd və şəhər arasında sərhədlər götürülür. Amansız hərəkətlər öz sözünü deyir. İbarhim müəllimlə Həsənin yerini dəyişsək, heç nə dəyişməyəcək. Ziyalı və sıravi vətəndaş arasında heç bir fərq yoxdu. Hər ikisi yaşamaq üçün mübarizədədi. Həyat... həyat isə yardımlaşmağı tələb edir. Təkcə insanlar deyil, canlılar arasında əl tutmaq, əl uzatmaq və qucaqlamaq. Martha Klark "Nəsli tükənməkdə olan növ" adlı dram əsərində səhnəyə heyvanlarla insanları birgə çıxarır. Mesaj böyükdür. İnsanların da, heyvanların da, bitkilərin də nəsli tükənməkdədi. Nəslin davamı üçün yaxşılıq və yardımlaşma zəruridir. Ədəbiyyatın çoxsəsli və harmoniyalı bağı mənə belə bir düşünmə haqqı verir: Cavid İbrahim müəllimin həyatində səs-səsə verib kədərli bir simfoniyanın tərkib hissəsinə çevrilən qazların, ördəklərin, toyuqların dili ilə nəsli tükənməkdə olan yaxşılığı səsləyir. Heyvanlar insanın dadına çatır. Çətin günündə məni sat deyir. Bəs insan? Bax, bu daha vacibdi. İbrahim müəllimlə həbsdən çıxıb işsiz qalan Həsəni həyatın qəddar, amansız hərəkətləri birləşdirir. Hər iki hekayədəki vizual səhnələr Brextin teatrda, Fellinin kinoda gerçəkləşdirdiyi hərəkəti andırır. Geriyə qalan məsum görünüşdü. Çətinliklər, ağrı-acılara rəğmən məsum qala bilmək. Kirlənməmək. Həsən də, İbrahim müəllim də çox safdı. Həsən inanır ki, bir gün "Opel" alacaq və halal zəhməti ilə uşaqlarına çörək gətirəcək. İbrahim müəllim də elə bilir ki, Xədicə müəllim borcun qaytarıb və o da həmin pulu salıb itirib. Hər ikisinin də itiyi var. Xoş güzəran. Rahat, bir az da olsa komfortlu yaşamdan minlərlə arşın uzaqdadılar. Can çəkişirlər. Cavid belə bir sual qoyur: Bəs rahat ömür sürməyə kim layiqdi? Ən azından İbrahim müəllimin balaları, Həsənin əkizləri və bir də bütün uşaqlar. Vizual sənət də, həqiqət də, mahiyyət də uşaqların məsum görünüş və əməlindədi. Onların yaşamaq haqlarındadı. Hüquqlarındadı. Vəssalam.

**Ədəbiyyat.- 2016- cı il.- 24 dekabr.- S. 21.**